Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci iclas

1-ci cild

23 sentyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BİRİNCİ İCLASININ

# PROTOKOLU № 1

*Milli Məclisin iclas salonu.*
*23 sentyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin ən qocaman deputatı* ***Ziyad Səmədzadə*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 122 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.11 dəq.) |
| İştirak edir | 122 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Nuriyev,** Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri.

**Ədalət Vəliyev,** Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri.

**Arif Səmədov,** Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi.

**Azər Qasımov,** Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi.

**Bəylər Əyyubov,** Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi.

* * *

**Fərhad Abdullayev,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.

**Sona Salmanova,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin müavini.

**Humay Əfəndiyeva**, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Rövşən İsmayılov**, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Ceyhun Qaracayev,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Rafael Qvaladze,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Fikrət Məmmədov,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**İsa Nəcəfov,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Kamran Şəfiyev,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

* * *

**Məzahir Pənahov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri.

**Rövzət Qasımov**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini.

**Arifə Muxtarova,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi.

**Fuad Cavadov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Ramiz İbrahimov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Validə Kazımova,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Hüseyn Paşayev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlham Məmmədov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Nizami Nadirxanlı,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Qabil Orucov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Bəxşeyiş Əsgərov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Nailə Əsgərova,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Tofiq Həsənov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Almas Qəhramanlı,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Etibar Quliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlkin Şahbazov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlqar Əlizadə,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri.

**Həsən Kazımzadə,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərinin müavini.

**İsmayıl Abbasəliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Təşkilat şöbəsinin müdiri.

**Rafiq Abbasov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Hüquq şöbəsinin müdiri.

**Rəşid Yusifbəyli,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri.

**Fərid Orucov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya mərkəzinin müdiri.

**Elşən Əsgərov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Ümumi şöbəsinin müdiri.

**Şahin Əsədli,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsinin müdiri.

**Fərid Əbilov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Siyasi partiyalarla iş şöbəsinin müdiri.

**Zirəddin Cəlilov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Redaksiya və nəşr şöbəsinin müdiri.

**Natiq Məmmədov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Maliyyə şöbəsinin müdiri.

**Ramin Nurəliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Təsərrüfat şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının təşkil edilməsi haqqında.
2. Azərbaycan Respublikası Milli Məclisi sədrinin seçilməsi haqqında.
3. Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavininin seçilməsi haqqında.
4. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.
5. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.

6. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.

7. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının təşkil edilməsi haqqında.

8. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında.

9. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında.

* * *

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev nitq söyləmişdir.**

* * *

**Azərbaycan Respublikası Milli Məclisi deputatlarının siyahısı oxunmuşdur.**

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**
**Çıxış etmişdir:** Ziyad Səmədzadə

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının təşkil edilməsi haqqında.**

**Çıxış etmişdir:** Ziyad Səmədzadə

**Təklif:** Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının üzvlərinin seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikası Milli Məclisi sədrinin seçilməsi haqqında.**

**Çıxış etmişlər:** Ziyad Səmədzadə, Eldar İbrahimov, Sahibə Qafarova

**Təklif:** Sahibə Əli qızı Qafarovanın Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 121 |

Nəticə: Qəbul edildi

**Yeddinci çağırış**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin birinci iclasına**
**sədrlik edən** **Ziyad Səmədzadə**

# YEDDİNCİ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BİRİNCİ İCLASININ

# PROTOKOLU № 2

*Milli Məclisin iclas salonu.*
*23 sentyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 122 deputatı iştirak etmişdir.**

**İclasa dəvət olunmuşlar:**

**Samir Nuriyev,** Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri.

**Ədalət Vəliyev,** Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri.

**Arif Səmədov,** Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi.

**Azər Qasımov,** Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi.

**Bəylər Əyyubov,** Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi.

* * *

**Fərhad Abdullayev,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.

**Sona Salmanova,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin müavini.

**Humay Əfəndiyeva**, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Rövşən İsmayılov,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Ceyhun Qaracayev,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Rafael Qvaladze,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Fikrət Məmmədov,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**İsa Nəcəfov,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

**Kamran Şəfiyev,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi.

* * *

**Məzahir Pənahov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri.

**Rövzət Qasımov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini.

**Arifə Muxtarova,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi.

**Fuad Cavadov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Ramiz İbrahimov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Validə Kazımova,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Hüseyn Paşayev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlham Məmmədov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Nizami Nadirxanlı,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Qabil Orucov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Bəxşeyiş Əsgərov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Nailə Əsgərova,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Tofiq Həsənov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Almas Qəhramanlı,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**Etibar Quliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlkin Şahbazov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü.

**İlqar Əlizadə,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri.

**Həsən Kazımzadə,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərinin müavini.

**İsmayıl Abbasəliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Təşkilat şöbəsinin müdiri.

**Rafiq Abbasov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Hüquq şöbəsinin müdiri.

**Rəşid Yusifbəyli,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri.

**Fərid Orucov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya mərkəzinin müdiri.

**Elşən Əsgərov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Ümumi şöbəsinin müdiri.

**Şahin Əsədli,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsinin müdiri.

**Fərid Əbilov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Siyasi partiyalarla iş şöbəsinin müdiri.

**Zirəddin Cəlilov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Redaksiya və nəşr şöbəsinin müdiri.

**Natiq Məmmədov,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Maliyyə şöbəsinin müdiri.

**Ramin Nurəliyev,** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin Təsərrüfat şöbəsinin müdiri.

## İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının təşkil edilməsi haqqında.
2. Azərbaycan Respublikası Milli Məclisi sədrinin seçilməsi haqqında.
3. Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavininin seçilməsi haqqında.
4. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.
5. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.
6. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.
7. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının təşkil edilməsi haqqında.

8. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında.
9. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**3. Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavininin seçilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Əhmədov

**Təklif:** Əli Cavad oğlu Əhmədovun Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini vəzifəsinə seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Ziyafət Abbas oğlu Əsgərovun Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini vəzifəsinə seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 118 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Qasımlı

**Təklif:** Musa Cəfər oğlu Qasımlının Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini vəzifəsinə seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin seçilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Rafael Hüseynov

**Təklif:** Rafael Baba oğlu Hüseynovun Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini vəzifəsinə seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs verмədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının təşkil edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının üzvlərinin seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*23 sentyabr 2024-cü il. Saat 10.50*

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Məclisin iclas salonuna daxil olur.***

*(Salonda sürəkli alqışlar.)*

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli deputatlar, xanımlar və cənablar!

Yeddinci çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə bütün deputatları ürəkdən təbrik etmək istəyirəm, Milli Məclisə uğurlar arzulayıram. *(Alqışlar.)*

Əminəm ki, Milli Məclis və onun deputatları öz işi ilə ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini bundan sonra da verəcək və Azərbaycanın dayanıqlı inkişafı təmin ediləcəkdir.

Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə,

birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır. 30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini biz bütün dünyaya qəbul etdirə bildik. Halbuki bunu qəbul etmək istəməyən ölkələr və dairələr var idi, bu gün də var. Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız ittihamlar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz.

Dövlət suverenliyinin bərpa edilməsindən cəmi bir il keçir. Üç gün bundan əvvəl biz artıq bu günü bayram günü kimi qeyd etmişik. Bununla bərabər, demək istərdim ki, arxayınlaşmaq üçün heç bir əsas yoxdur. Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək.

Ona görə bu gün bu fürsətdən istifadə edərək ölkə

qarşısında duran bəzi vəzifələr haqqında öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istərdim.

Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə – nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, “Kim güclüdür, o da haqlıdır” prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər. Bizim isə siyasətimiz, əslində, uzun illər ərzində bu istiqamətdə aparılırdı. İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır.

Bəli, ölkə qarşısında böyük vəzifələr durur, ilk növbədə, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi. Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər.

Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə

marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə, bu xülyalarla yaşayır. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Üzdə bunu desələr də, onların işləri, siyasətləri, addımları tam əks mənzərə yaradır. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Hər kəs yaxşı bilir, Minsk qrupu nə üçün yaradılmışdır – Qarabağ münaqişəsinin həlli üçün. Qarabağ münaqişəsi həll olunub, tam və birdəfəlik. Ermənistanın rəsmi dairələri də öz bəyanatları ilə sanki bunu etiraf edirlər. Amma bununla paralel olaraq, bizim bütün təkidlərimizə rəğmən, Minsk qrupunu yenə də formal olaraq saxlamaq ancaq bir məqsədi güdə bilər ki, yenidən bizə qarşı ərazi iddiaları baş qaldırsın. Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar – bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur – bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur.

Ona görə bir də deyirəm: vəzifə nömrə bir – hərbi gücümüzün artırılması və biz bunu edirik. İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü

böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq.

Bununla paralel olaraq, biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılmışdır və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Deməli, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçibdir. Yəqin ki, növbəti bir-iki il ərzində bizim hərbi sənaye kompleksimiz daha böyük olacaqdır, həm çeşidlərin sayına, həm də ki, istehsal olunacaq məhsulların keyfiyyətinə görə. Burada bir neçə məqsəd güdülür. İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq. Təbii ki, bu asılılığı tam aradan qaldırmaq mümkün olmayacaq. Bunu da biz bilməliyik. Amma maksimum dərəcədə özümüzü yerli istehsalla təmin etməliyik. Bu sahədə, xüsusilə müasir dövrdə tətbiq olunan texnoloji yeniliklər bizim ümumi intellektual potensialımızı gücləndirəcək. Çünki bu sahədə çalışan

kadrlar öz işlərini tamamilə yeni texnoloji və metodoloji əsaslar üzərində qururlar və quracaqlar. Minlərlə yeni iş yeri yaradılacaq. Artıq bütün bunlar bizim təkcə planlarımız deyil, həyata keçirilən layihələrdir. Təbii olaraq, bu layihələr haqqında geniş danışmağa ehtiyac yoxdur. Sadəcə olaraq, bildirməliyəm ki, bu da bizim növbəti illər üçün əsas vəzifələrimizdən biri olacaqdır.

Digər amil ondan ibarətdir ki, bu gün dünya silah bazarında aparıcı rol oynayan ölkələrin başı öz işlərinə qarışıb. Onlar daha çox öz daxili tələbatını ödəmək üçün çalışırlar. Ona görə dünya silah bazarında təbii olaraq qıtlıq yaranıbdır. Biz bunu da nəzərə almalıyıq. Eyni zamanda, bu sahə bizə imkan verəcək ki, hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirək. Onsuz da bu gün Azərbaycan onlarla ölkəyə hərbi sənaye kompleksinin məhsullarını ixrac edir və ildən-ilə bu coğrafiya genişlənir. Bu bizim bir çox ölkələrlə apardığımız danışıqların, o cümlədən, iqtisadi və sərmayə qoyuluşu sahəsində aparılan danışıqların tərkib hissəsidir – biz yaxın gələcəkdə dünya silah bazarında önəmli oyunçuya çevrilək və bu imkanlar var.

Siz onu da yaxşı bilirsiniz ki, artıq bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açıq elan etmişik və şadam ki, mənim çağırışıma özəl sektor da müsbət reaksiya vermişdir. Artıq bir neçə yerli Azərbaycan şirkəti, özəl şirkət hərbi sənaye kompleksinin inkişafında iştirak edir, təbii olaraq, müvafiq dövlət qurumlarından lisenziyalar almaq şərti ilə. Beləliklə, bu, bizə imkan verəcək ki, bir neçə ildən sonra bu sahədə istehsal olunan məhsul milyardlarla dollarla ölçülsün.

Növbəti önəmli vəzifə sərhədlərimizin qorunması ilə bağlıdır. Mən bu haqda artıq bir neçə dəfə öz fikirlərimi

ictimaiyyətə çatdırmışam. Hazırda həm Ermənistanla şərti sərhədimizdə mühəndis işləri aparılır, eyni zamanda, digər qonşularla sərhədimiz müasir infrastrukturla təchiz edilməlidir.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədimizin uzunluğu 500 kilometrdən çoxdur. Özü də bu şərti sərhədin relyefi, coğrafiyası çox ağır, həm də ki, iqlim nöqteyi-nəzərindən çox çətin yerlərdə yerləşir və orada xidmət aparmaq o qədər də asan deyil. Bizim bəzi xidmət yerlərimizin hündürlüyü 3 min metrdən çoxdur. Amma buna baxmayaraq, bizim sərhədboyu yerləşən hərbi mövqelərimiz möhkəmlənir. Biz şərti sərhəddə möhkəmlənirik, çünki hər an Ermənistandan istənilən təxribat gözləmək olar və Ermənistan tərəfi həm kütləvi surətdə silahlanır, eyni zamanda, xarici ölkələrlə, özü də böyük dövlətlərlə hərbi təlimlər keçirir. Ermənistana Qərb ölkələrindən silah-sursat göndərilir. Bəzi hallarda açıq – necə ki, Fransa–Ermənistan hərbi əməkdaşlığı açıq-aşkar aparılır, bəzi hallarda isə məxfi formada. Ancaq biz indi hər şeyi bilməliyik və bilirik, kimlər nəyi Ermənistana nə vaxt ötürür, hansı hərbi yük təyyarələri Ermənistan hava limanlarına enir və o yük təyyarələrində hansı hərbi məhsullar Ermənistana daşınır. Yəni Ermənistanı bizə qarşı yönəltmək üçün bəzi Qərb dövlətlərinin planları göz qabağındadır. Təbii ki, onları erməni xalqı maraqlandırmır. Erməni xalqı, sadəcə, onlar üçün bir alətdir, bir vasitədir ki, Azərbaycanı daim təzyiq altında saxlasın, Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Ermənistanın digər qonşuları üçün təhdid mənbələri yaratsın və beləliklə, öz maraqlarını təmin etsin. Yəni bu metodologiya kifayət qədər bəsitdir. Ancaq onu da bilməlidirlər ki,

biz buna imkan verməyəcəyik. Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin. Sərhədlərin mühafizəsi isə həm vizual, həm infrastruktur, həm texnoloji vasitələrlə təşkil edilir və edilməlidir. Ancaq biz hamımız bilməliyik ki, bu, çox böyük, genişmiqyaslı bir işdir.

Digər qonşularımızla da sərhədlərimizin möhkəmləndirilməsi vacib şərtlərdən biridir və əminəm ki, Azərbaycan vətəndaşları da bu məsələyə anlayışla yanaşırlar. Bizim quru sərhədlərimiz hələ də bağlıdır, yəni vətəndaşların gəliş-gedişləri üçün. Başa düşürük ki, bu, müəyyən çətinliklər yaradır. Ancaq bugünkü geosiyasi vəziyyət də hamının gözü qarşısındadır, daxili təhlükəsizliyi təmin etmək üçün bu, yeganə düzgün addımdır. Daxili təhlükəsizlik ilə bağlı bütün lazımi tədbirlər görülür. Təhdidlər də var – real və potensial. O təhdidlərin aradan qaldırılması üçün müvafiq qurumlar fəal işləyirlər. İctimaiyyət də lazım olan həcmdə bu məsələ ilə tanış olur, məlumatlar verilir. Ancaq bu sahə çox həssas olduğu üçün, hesab edirəm, Azərbaycan vətəndaşları başa düşürlər ki, bu barədə çox şey danışmaq yersiz və zərərli olar. Amma mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün – sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq, uzun illərdir, təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin

vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır.

Digər vacib vəzifələr ideoloji təhlükəsizliklə bağlıdır və burada da biz daim diqqətli olmalıyıq. Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Düzdür, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır. İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür. Ancaq bununla bərabər, bu, bizi sakitləşdirməməlidir. Ona görə biz buna daim hazır olmalıyıq və bizə qarşı aparılan çirkin oyunları ifşa etməliyik, necə ki, edirik, həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media məkanında. Hesab edirəm ki, Azərbaycan xalqı bu gün hər şeyi yaxşı görür, hər şeyi yaxşı bilir – bizim dostumuz kimdir,  düşmənimiz kimdir. Əsas meyar ölkələrin bizim suverenliyimizin bərpasına olan münasibətidir, daha başqa uzağa getmək lazım deyil. Bizi kim dəstəkləyib, suverenliyimizin bərpa edilməsində kim təbrik edib? Bu, bizim dostlarımızdır. Buna qarşı kim çıxıb və kim çıxır? Bunlar bizə dost ola bilməzlər. İşğal dövründə bu, o qədər də aydın deyildi. Yəni bizim üçün aydın olsa da, geniş ictimaiyyət üçün aydın deyildi. Çünki vaxtilə xarici təbliğat Azərbaycanda o qədər kök salmışdı, özü də bir mənbədən yox, bir neçə mənbədən. Bir-biri ilə rəqabət aparan xarici qüvvələr və ölkələr çalışırdılar ki, Azərbaycanda ictimai fikirdə söz sahibi olsunlar. İstəyirdilər ki, onların əlaltıları vasitəsilə bizim media məkanında istənilən təxribatı ortaya ataraq vəziyyəti öz xeyrinə dəyişdirsinlər. Yəni belə cəhdlər çox olub, amma güclü iradə və

xalqımızın birliyi buna imkan verməyib. Bu gün də bu davam edir. Ona görə yenə də deyirəm, çox sadə meyarlar var. Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürək-dirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər? Ona görə hər şeyin, necə deyərlər, açıq-aydın görünməsi bu gün daha aydındır. Çünki yenə də deyirəm, işğal dövründə bizə qarşı bu qədər açıq, təxribat xarakterli addımlar olmamışdı. Çünki o işğal bizə qarşı olan qüvvələri tam qane edirdi – Azərbaycan dövləti daim təzyiq altında olsun, daim hansısa vasitəçilərə möhtac olsun, daim xalqımız mənəvi əzab çəksin, qaçqınlıq əzabı. Torpaqlarını itirmiş xalqın duyğularını başa düşmək üçün böyük ağıla malik olmaq lazım deyil. Yəni biz bu bəladan canımızı qurtardıq və bizə qarşı olan anti-Azərbaycan qüvvələrin maskaları dərhal yırtıldı və bu gün də biz bunu görürük. Mən hesab edirəm ki, ad çəkməyə ehtiyac yoxdur, hər kəs hər şeyi görür. Ona görə ideoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların. Biz bu məsələ ilə əlaqədar, əlbəttə ki, öz addımlarımızı atırıq və atacağıq.

Bir məsələyə də toxunmaq istərdim. Mən üç gün bundan əvvəl Xankəndidə Qarabağ Universitetinin açılışında bunu demişəm, bir də demək istəyirəm. Məsələnin vacibliyi bunu diktə edir ki, gənc nəslin milli ruhda böyüməsi, sadəcə olaraq, sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri

insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Zatən qürurlu olmaq üçün bizim şanlı müharibələrimizdən sonra, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?! Bu parlaq Qələbəni cəmi 44 gün ərzində, şəhidlər verərək, – Allah bütün şəhidlərimizə rəhmət eləsin, – kim qazana bilib?! Bir neçə saat böyük xarici təzyiq altında davam edən antiterror əməliyyatı, – mən heç başqa amilləri demirəm, – separatçılığın kökü kəsildi Azərbaycanda – kim edə bilərdi?! Yəni öz ölkəmizlə, xalqımızla fəxr etmək üçün ən çox haqlı olan xalq Azərbaycan xalqıdır. *(Alqışlar.)*

Yenə də deyirəm, ona görə biz – bütün cəmiyyət daim diqqətli olmalıyıq. Mən Xankəndidə də bunu dedim: tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu, əsasdır. Təbii ki, cəmiyyət, cəmiyyətdə hökm sürən ümumi ab-hava, necə deyərlər, iqlim – bütün bunlar gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir göstərir. Ona görə bu məsələ daim diqqət mərkəzində olmalıdır. Əminəm ki, belə də olacaq. O cümlədən bizim deputatlar da, təbii olaraq, öz seçiciləri ilə görüşlər əsnasında bu məsələni daim diqqətdə saxlasınlar.

Qarabağın və Şərqi Zəngəzurun bərpası, təbii olaraq, bizim hər birimizin önəmli vəzifəsidir.

Əgər mən İkinci Qarabağ müharibəsindən sonra görülmüş işləri sadalamağa başlasam, onda gərək bir neçə saat sizin qarşınızda çıxış edim. Sadəcə olaraq, bir neçə rəqəmi sizin və ictimaiyyətin diqqətinə çatdırmaq

istərdim. Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Eyni zamanda, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və səkkiz mindən çox keçmiş köçkün artıq Qarabağa və Şərqi Zəngəzura yerləşib və hər ay, hər il onların sayı artacaqdır.

İnfrastruktur layihələri çox geniş miqyas alıb, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir, – yəni o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil, – 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Yəni, bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub – həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə.

Bizim mədəni, tarixi irsimizin qorunması üçün praktiki işlər görülür, tarixi abidələr bərpa edilir. Ermənilər tərəfindən dağılmış yeddi məscid yenidən qurulmuşdur. Səkkiz məscidin inşası davam edir. Zəfər muzeyləri, işğal muzeyləri, zəfər parkları, yəni bu coğrafiyada belə genişmiqyaslı işləri aparmaq, bir daha deyirəm, doğrudan da, xalqımızın böyük imkanlarını göstərir və burada söhbət təkcə maliyyə vəsaitindən getmir. Bizim qurduğumuz dövlət, eyni zamanda, texniki imkanlara malikdir. Kadr

hazırlığı da yerindədir. Çünki bu işləri görmək – üç min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da, böyük peşəkarlıq tələb edir. Yəni ölkəmizin potensialı budur. Biz buna hazırıq. Biz torpaqları azad edən kimi dərhal buna başlamışıq. Hətta onu da deyim ki, hələ 44 günlük İkinci Qarabağ müharibəsi bitməmişdi, biz Ağdərə rayonunda artıq yol infrastrukturunu inşa etməyə başlamışdıq. Əlbəttə ki, gələcək illərdə işlər daha sürətlə gedəcək. Yaxın vaxtlarda gələn ilin büdcəsi məclisdə müzakirə ediləcək. Əminəm ki, deputatlar hökumətin Qarabağ və Şərqi Zəngəzur üçün nəzərdə tutulan planlarını təsdiq edəcəklər və biz bunu təmin edəcəyik. Təbii ki, bütün bu işləri görmək üçün iqtisadi imkanımız olmalıdır. Çünki mən onu da bildirməliyəm ki, bütün bu işləri biz öz hesabımıza edirik. Bu günə qədər bizə bərpa işlərində köməklik edən Özbəkistan və Qazaxıstan – qardaş dövlətlər olub. Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilibdir və hazırda Qırğızıstan Respublikası da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam. Bundan başqa, necə deyərlər, bizə bir daş da müftə verilməmişdir. Biz bütün bu işləri öz hesabımıza edirik. Dünyanın bir çox donor təşkilatları var, onlar, necə deyərlər, bu məsələyə biganədirlər. Halbuki bu böyük ərazini bu vəziyyətdə görən minlərlə xarici nümayəndə olub. Bunu görüb və heç bir praktiki iş görməmək bir daha onu göstərir ki, bizə olan münasibət nəzərə alınmalıdır. Bu, bir daha bizə göstərməlidir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq, biz öz potensialımıza güvənməliyik.

Bu ilin iqtisadi sahədə göstəriciləri, hesab edirəm ki, müsbətdir. Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox

artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir. Yəni bu, sadəcə olaraq, kiçik bir arayışdır.

Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir. Çünki biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır.

Yəni bu sosialyönümlü siyasət bir daha bizim ümumi siyasətimizi, niyyətimizi göstərir. Əlbəttə ki, gələcəkdə bu istiqamətdə siyasəti aparmaq üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas şərtdir. Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan "İstisu" su zavodunun açılışı olmuşdur və artıq İstisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da, həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır. Çünki vaxtilə

– sovet dövründə fəaliyyət göstərən həm zavod, həm də sanatoriya ermənilər tərəfindən dağıdılmışdır.

Ermənistanla münasibətlərin normallaşması məsələsinə də toxunmaq istərdim. Yenə də bildirmək istəyirəm ki, İkinci Qarabağ müharibəsində məhz Azərbaycanın təşəbbüsü ilə sülh danışıqları başlamışdır. O vaxt nə Ermənistan, nə başqa ölkələr, ümumiyyətlə, gələcək nədən ibarət olacaq, bu haqda heç öz fikirlərini formalaşdırmamışdılar. Bizim təşəbbüsümüz idi. Bir müddət sonra görəndə ki, bu, cavabsız qalır, biz artıq əsas baza prinsiplərini ortaya qoyduq, onları ictimailəşdirdik və artıq proses başlamışdır. Ancaq nəyi görürük? Görürük ki, Ermənistan bu məsələni süni şəkildə uzadır. Çünki bu günə qədər – bizim birinci layihəmiz Ermənistana göndəriləndən bu günə qədər 10 şərhlər mübadiləsi olmuşdur və hər dəfə müəyyən müddəalar razılaşdırılırdı, yəni bu işdə tərəqqi var idi. Bunu biz necə var, elə də deməliyik. Amma bununla yanaşı, aylar keçdikcə, təbii olaraq, biz gözləyirdik ki, Ermənistan öz şərhlərini bizə daha operativ və çevik verəcək. Ancaq biz bunun tam əksini gördük. Son variantın onlardan alınmasını biz 70 gün gözləməli olduq. İyunun 24-də bizim şərhlərimiz onlara göndərildi və avqustun sonunda, ya da ki, sentyabrın əvvəlində onlar bizə cavab göndərmişdilər. Bu cavab nədən ibarət idi? Bütün razılaşdırılmamış müddəalar onların variantında sülh müqaviləsindən çıxarıldı. Yəni bu dərəcədə primitiv və qeyri-adekvat addım, sözün düzü, gözlənilən deyildi. Mətndən çıxarılmış, yəni onların istəyi ilə çıxarılması nəzərdə tutulan müddəalar vacibdir. Onlarsız sülh müqaviləsi natamam olacaq. Ona görə bu qədər qeyri-səmimi münasibət bizi, təbii olaraq, düşündürür. Bayaq dediyim amillərlə yanaşı, əgər biz bütün bu amilləri, necə

deyərlər, bir çərçivəyə salsaq, görərik ki, həm sürətli silahlanma, revanşizm meyilləri, həm də Ermənistanın himayədarlarının bizə qarşı yenidən Qarabağ mövzusunu ortaya atması, sülh müqaviləsinin gedişatında qeyri-adekvat və qeyri-səmimi münasibət, vaxt uzatma taktikası və digər məqamlar deməyə əsas verir ki, Ermənistan, əslində, sülh istəmir, vaxt uzatmaq, bu vaxtdan istifadə edərək, xarici himayədarların dəstəyi ilə hərbi potensial qurmaq istəyir. Artıq bəzi Avropa ölkələrinin və təkcə Avropa deyil, digər Qərb ölkələrinin nümayəndələri Ermənistan ordusunda işə başlayıblar. Bizim sərhədimizdə qanunsuz olaraq dırnaqarası "Avropa sülh", ya bilmirəm, "müşahidəçi" missiyası yaradılıb, halbuki bu, əldə edilmiş razılaşmanın pozulmasıdır. Mən həm Avropa İttifaqına, həm Ermənistana onu da xatırlatmaq istəyirəm ki, 2022-ci ilin Praqa görüşündə razılıq əldə edilmişdir ki, – bəli, biz də razılıq vermişdik, – Ermənistan tərəfində şərti sərhəd istiqamətində kiçik sayda müşahidəçi missiya yerləşsin, cəmi iki, ya üç aya. Yəni bizimlə bu razılaşdırıldı. Amma ondan sonra bizsiz bunu uzatdılar, onların sayını artırdılar, oraya Kanadadan nümayəndələr daxil edildi və faktiki olaraq bu missiya NATO missiyasıdır. Ondan sonra bizə qarşı "Binokl diplomatiyası", deməli, siyasəti aparılırdı. Gecə-gündüz xarici nümayəndələr gəlirdi, binoklla bizə baxırdı. Nə göstərmək istəyirdilər bizə?! Bu, nə demonstrasiyadır, nə ucuz şoudur?! Bütün bu amillər bizi ciddi düşündürməlidir və təbii ki, düşündürür. Ona görə Ermənistanla normallaşma əgər onlara lazım deyilsə, deməli, bu olmayacaq. Biz hər halda öz mövqeyimizdən bir addım geri atmayacağıq. Kim nə istəyir desin, vasitəçilər də bizə lazım deyil. Düzdür, indi bəzi vasitəçilik təkliflərinə biz etiraz etmirik, sadəcə olaraq, siyasi nəzakət naminə. An-

caq, əslində, bizə vasitəçi lazım deyil. Biz Ermənistanla dövlət sərhədinin delimitasiyasını vasitəçilərsiz etdik. Sadəcə olaraq, onlara bildirdik ki, Qazax rayonunun dörd kəndi bizə qeyd-şərtsiz qaytarılmalıdır və bunu son dəfə mən bu ilin fevral ayında demişəm. Hesab edirəm ki, bu sözlər çox tutarlı oldu və ondan sonra heç bir vasitəçisiz, heç bir qeyd-şərtsiz Qazaxın dörd kəndi, – hansı ki, işğal altında idi, – bizə qaytarıldı. Beləliklə, biz nəinki delimitasiyanı, hətta demarkasiyanı da başlamışıq. Ona görə danışıqlarda da bizə heç bir vasitəçi lazım deyil. Ermənistan da buna bel bağlamasın. Ümumiyyətlə, heç kimə bel bağlamasın. Onlar əgər bu coğrafiyada yaşamaq istəyirlərsə və təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, öz qonşularına qarşı siyasətlərində ciddi düzəlişlər etməlidirlər. Bu, birincisi. İkincisi, nə onlar, nə onların arxasında duranlar 30 illik işğalı heç vaxt unutmamalıdırlar. Amma bunu unutmaq istəyirlər və unutdurmaq istəyirlər. Sanki bu işğal olmayıb. İkinci Qarabağ müharibəsinin nəticələrini unutmamalıdırlar, Ermənistan ordusu darmadağın edilmişdir. Ermənistan kapitulyasiya aktını imzalamışdır. Ondan sonra mən əmr verdim və Azərbaycan Ordusunun şanlı Zəfər yürüşü dayandırıldı. Bugünkü reallıq bir daha göstərir ki, bu nə qədər düzgün addım idi, ondan sonrakı hadisələr də göz qabağındadır və nəticə etibarilə 20 Sentyabr – suverenliyimizin tam bərpa edilməsi günü unudulmamalıdır və bu tarixi həqiqət danışıqlar masasında da daim olmalıdır.

İkinci Dünya müharibəsindən sonra faşist Almaniyasına heç kim sülh müqaviləsi təklif etməmişdir. Faşist Almaniyası bir neçə yerə bölünmüşdü, kapitulyasiyaya uğrayan faşist dövlət cəzalandırıldı. Burada isə kapitulyasiyaya uğrayan faşist dövlət nəinki cəzalandırılmadı, hətta

onlara bütün preferensiyalar verilir. Onlara Amerikadan indi 250 milyon dollar pul verilir. O puldan onlar öz daxili məqsədlərinə istifadə edəcəklər, qənaət olunan pula isə silah alacaqlar, bizi öldürməyə. Bu məsuliyyəti kim daşıyır və kim daşıyacaq? O pulu onlara verən. O cümlədən dırnaqarası “Avropa Sülh Fondu”. Görün, bu riyakarlığın səviyyəsinə baxın. Silah üçün nəzərdə tutulan fond, ona “Sülh Fondu” deyirlər, Ermənistan ondan istifadə edir, Fransadan pulsuz silah alır. O vəsait də ödənilmir, başqa yerlərdən. Ona görə bu, ciddi məsələdir və bu barədə çox da danışmaq istəməzdim. Sadəcə olaraq, bizim şərtlərimiz yerində qalır. Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır.

Bilirsiniz, işğal dövründə bizim, təbii olaraq, xarici siyasətimizin böyük hissəsi bu istiqamətə yönəlirdi. İndi isə – tarixi Zəfərimizdən sonra biz xarici siyasətimizdə daha sərbəstik və bu münasibətlə bir neçə kəlmə demək istərdim: müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil, təbii olaraq, həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız

olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir. Çünki bəzi Qərb ölkələri hesab edirlər ki, beynəlxalq ictimaiyyət ancaq onlardır və onların əli altında olan demək istəmirəm, yəni asılı dövlətlər. Yox, beynəlxalq ictimaiyyət bütün dünya ölkələridir və bu dünya ölkələri bizə yekdilliklə səs verib. COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Bundan sonra da xarici siyasətdə geriyə heç bir addım olmayacaq. Dostlarımızın bütün qitələrdə sayı artır. Biz indi – İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Təbii olaraq, ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz yerindədir və daha da inkişaf edir və edəcək.

Təbii ki, ölkə qarşısında bir çox digər vəzifələr var. Bir daha məclis üzvlərini yeddinci çağırış parlamentin fəaliyyətə başlaması münasibətilə təbrik etmək istəyirəm. Hər birinizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun. *(Alqışlar.)*

## *Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Məclisin iclas salonunu tərk edir.*

*Azərbaycan Respublikası Milli Məclisinin ən qocaman deputatı* ***Ziyad Səmədzadə*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Milli Məclisin ən yaşlı deputatı kimi iclasa sədrlik etmək şərəfi mənə nəsib olmuşdur.

Yeddinci çağırış Milli Məclisin birinci iclasını açıq elan edirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu gün Milli Məclisə təşrif buyurması, dəyərli fikirlərini bölüşməsi və proqram xarakterli tövsiyələrini verməsi parlamentimizin tarixinə yazılan ən mühüm hadisələrdən biridir.

Ulu Öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirərək Azərbaycanı zirvələrə yüksəltdiyinə, dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirdiyinə görə biz cənab Prezidentə minnətdarıq və ona gələcək işlərində yeni uğurlar arzulayırıq! *(Alqışlar.)*

Azərbaycan Respublikası müstəqil inkişaf yolunda qarşıya çıxan böyük çətinlikləri aradan qaldırmış, dövlət və cəmiyyət həyatının bütün sahələrində heyrətamiz uğurlar qazanmışdır. Qlobal risklərin və təzyiqlərin artdığı bir şəraitdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasət milli maraqlarımızın, mənəvi dəyərlərimizin, ailə dəyərlərimizin qorunmasını, dövlət müstəqilliyimizin möhkəmlənməsini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Ko-

mandan İlham Əliyevin sərkərdəlik və diplomatik məharəti, Silahlı Qüvvələrimizin qəhrəmanlığı və fədakarlığı sayəsində əzəli torpaqlarımızın 30 illik işğaldan azad olunması xalqımızın başını ucaltmış və milli tariximizdə yeni səhifə açmışdır. Erməni işğalından azad edilmiş torpaqlarda – Qarabağda və Şərqi Zəngəzurda bu gün genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, məcburi köçkünlərin yurd həsrətinə son qoyulur.

Müstəqillik dövründə ilk dəfə olaraq Milli Məclis ölkəmizin bütün ərazisində keçirilən seçkilər yolu ilə formalaşmışdır.

Hörmətli deputatlar, Milli Məclisə seçilməyiniz münasibəti ilə sizi təbrik edirəm, parlament fəaliyyətində sizə uğurlar arzulayıram! *(Alqışlar.)*

Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, yeni çağırış Milli Məclisin ilk iclasında Milli Məclisə seçilmiş deputatların siyahısı oxunmalıdır.

İcazənizlə, yeddinci çağırış Milli Məclisin deputatlarının siyahısını oxuyuram:

1 saylı Şərur-Sədərək seçki dairəsi – **Əsgərov** Ziyafət Abbas oğlu,

2 saylı Şərur-Kəngərli seçki dairəsi – **Novruzov** Siyavuş Dünyamalı oğlu,

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi – **Möhbalıyev** Səttar Suliddin oğlu,

4 saylı Naxçıvan şəhər seçki dairəsi – **İbrahimov** Eldar Rza oğlu,

5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi – **Həmzəyeva** Ülviyyə Tapdıq qızı,

6 saylı Ordubad-Culfa seçki dairəsi – **Rəhimzadə** Vüqar Gəncəli oğlu,

7 saylı Səbail seçki dairəsi – **Arpadarai** Nigar Cavid qızı,

8 saylı Binəqədi birinci seçki dairəsi – **Quliyev** Azay Əjdər oğlu,

9 saylı Binəqədi ikinci seçki dairəsi – **Qafarov** Kamaləddin Nəsrəddin oğlu,

10 saylı Binəqədi üçüncü seçki dairəsi – **Musayev** Elşad Nəbi oğlu,

11 saylı Binəqədi-Qaradağ seçki dairəsi – **Xasayeva** Səbinə Səməd qızı,

12 saylı Xəzər birinci seçki dairəsi – **Məmmədov** Soltan Teymur oğlu,

13 saylı Xəzər ikinci seçki dairəsi – **Paşayeva** Gülşən Məmmədəli qızı,

14 saylı Xəzər-Pirallahı seçki dairəsi – **Əfəndiyeva** Günay Elçin qızı,

15 saylı Yasamal birinci seçki dairəsi – **Quliyev** Ülvi Zahid oğlu,

16 saylı Yasamal ikinci seçki dairəsi – **Qədirli** Erkin Toğrul oğlu,

17 saylı Yasamal üçüncü seçki dairəsi – **Qəhrəmanov** Göydəniz İbrahim oğlu,

18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsi – **Musabəyov** Rasim Nəsrəddin oğlu,

19 saylı Nərimanov birinci seçki dairəsi – **Məmmədov** Hikmət Baba oğlu,

20 saylı Nərimanov ikinci seçki dairəsi – **Vəliyev** Samir Əhməd oğlu,

21 saylı Nəsimi-Binəqədi seçki dairəsi – **İbrahimqızı** Məlahət İbrahim qızı,

22 saylı Nəsimi-Yasamal seçki dairəsi – **Mollazadə** Asim Nazim oğlu,

23 saylı Nəsimi-Səbail seçki dairəsi – **Səmədzadə** Ziyad Əliabbas oğlu,

24 saylı Nizami birinci seçki dairəsi – **Nurullayeva** Könül Oruc qızı,

25 saylı Nizami ikinci seçki dairəsi – **Əhmədov** Əli Cavad oğlu,

26 saylı Sabunçu birinci seçki dairəsi – **Mustafa** Fazil Qəzənfər oğlu,

27 saylı Sabunçu ikinci seçki dairəsi – **Əli-zadə** Arzuxan Baxşəli oğlu,

28 saylı Sabunçu üçüncü seçki dairəsi – **Quliyev** Eldar Allahyar oğlu,

29 saylı Sabunçu dördüncü seçki dairəsi – **Allahverənov** Azər Kərim oğlu,

30 saylı Suraxanı birinci seçki dairəsi – **Fətəliyeva** Sevinc Həbib qızı,

31 saylı Suraxanı ikinci seçki dairəsi – **Məmmədov** Qaya Məmməd oğlu,

32 saylı Suraxanı üçüncü seçki dairəsi – **Həsənova** Afət Əbil qızı,

33 saylı Xətai birinci seçki dairəsi – **Oruc** Zahid Məhərrəm oğlu,

34 saylı Xətai ikinci seçki dairəsi – **Zabelin** Mixail Yuryeviç,

35 saylı Xətai üçüncü seçki dairəsi – **Vəliyeva** Pərvanə Bulut qızı,

36 saylı Xətai-Suraxanı seçki dairəsi – **Həsənquliyev** Qüdrət Müzəffər oğlu

37 saylı Qaradağ seçki dairəsi – **Hüseynov** Aydın Nəsir oğlu,

38 saylı Gəncə birinci seçki dairəsi – **Həmzəyev** Naqif Ələşrəf oğlu,

39 saylı Gəncə ikinci seçki dairəsi – **Kərimzadə** Pərvin Orxan qızı,

40 saylı Gəncə üçüncü seçki dairəsi – **Quliyev** Musa İsa oğlu,

41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi – **Cəfərov** Müşfiq Cəfər oğlu,

42 saylı Sumqayıt birinci seçki dairəsi – **Hüseynova** Hicran Kamran qızı,

43 saylı Sumqayıt ikinci seçki dairəsi – **Mirkişili** Tahir Famil oğlu,

44 saylı Sumqayıt üçüncü seçki dairəsi – **Vəliyeva** Mehriban Hidayət qızı,

45 saylı Sumqayıt dördüncü seçki dairəsi – **Salmanova** Səbinə Qədir qızı,

46 saylı Sumqayıt beşinci seçki dairəsi – **Akimova** Elnarə Seydulla qızı,

47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsi – **Şükürov** Zaur Ramiz oğlu,

48 saylı Abşeron birinci seçki dairəsi – **Məmmədova** Nigar Fikrət qızı,

49 saylı Abşeron ikinci seçki dairəsi – **Nəbiyev** Rizvan Novruz oğlu,

50 saylı Abşeron üçüncü seçki dairəsi – **Namazov** Ramid Zakir oğlu,

51 saylı Şirvan seçki dairəsi – **Əsədov** Heydər Xanış oğlu,

52 saylı Yevlax seçki dairəsi – **Məmmədov** İlham Kazım oğlu,

53 saylı Yevlax-Mingəçevir seçki dairəsi – **Hüseynli** Əli Məhəmməd oğlu,

54 saylı Mingəçevir seçki dairəsi – **Mirzəzadə** Aydın Böyükkişi oğlu,

55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsi – **Məmmədli** Müşfiq Fazil oğlu,

56 saylı Şabran-Xaçmaz seçki dairəsi – **Süleymanlı** Mahir Tahir oğlu,

57 saylı Xaçmaz şəhər seçki dairəsi – **Vəliyev** Ağalar İsrəfil oğlu,

58 saylı Xaçmaz kənd seçki dairəsi – **Mikayılova** Sevil Əlirazı qızı,

59 saylı Quba seçki dairəsi – **Məhərrəmzadə** Əlibala Səttar oğlu,

60 saylı Quba-Qusar seçki dairəsi – **Rafailov** Anatoliy Xaimoviç,

61 saylı Qusar seçki dairəsi – **Badamov** Azər Camal oğlu,

62 saylı Kürdəmir seçki dairəsi – **Ağazadə** Əminə Həmid qızı,

63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi – **Hüseynov** Rafael Baba oğlu,

64 saylı Salyan seçki dairəsi – **Qurbanov** Sadiq Haqverdi oğlu,

65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi – **Ağamalı** Günay Fəzail qızı,

66 saylı Saatlı seçki dairəsi – **Ələkbərov** Əziz Yusif oğlu,

67 saylı Sabirabad seçki dairəsi – **Əmiraslanov** Əhliman Tapdıq oğlu,

68 saylı Sabirabad-Şirvan seçki dairəsi – **Cəfərov** Kamal Xaqani oğlu,

69 saylı Biləsuvar seçki dairəsi – **Məhərrəmov** Bəhruz Abdurrəhman oğlu,

70 saylı Neftçala seçki dairəsi – **Rüstəmxanlı** Tənzilə Yolçu qızı,

71 saylı Cəlilabad şəhər seçki dairəsi – **Həsənov** Malik Əvəz oğlu,

72 saylı Cəlilabad kənd seçki dairəsi – **Nəsirov** Elman Xudam oğlu,

73 saylı Masallı-Cəlilabad seçki dairəsi – **İbrahimli** Fəzail Feyruz oğlu,

74 saylı Masallı seçki dairəsi – **Məmmədov** Məşhur Şahbaz oğlu,

75 saylı Yardımlı-Masallı seçki dairəsi – **Qasımlı** Musa Cəfər oğlu,

76 saylı Lənkəran-Masallı seçki dairəsi – **Paşazadə** Cavanşir Hümmət oğlu,

77 saylı Lənkəran şəhər seçki dairəsi – **İsmayılzadə** Fariz Akif oğlu,

78 saylı Lənkəran kənd seçki dairəsi – **İsgəndərov** Anar Camal oğlu,

79 saylı Astara seçki dairəsi – **Mahmudov** Rəşad Məmmədqulu oğlu,

80 saylı Lerik-Astara seçki dairəsi – **Qafarov** Vasif Vaqif oğlu,

81 saylı İmişli seçki dairəsi – **Nurullayev** Razi Qulaməli oğlu,

82 saylı İmişli-Saatlı seçki dairəsi – **Salahlı** Səyyad Adil oğlu,

83 saylı Beyləqan seçki dairəsi – **İsmayılov** Şahin Əmir oğlu,

84 saylı Füzuli seçki dairəsi – **Bayramov** Vüqar İbad oğlu,

85 saylı Füzuli-Ağcabədi seçki dairəsi – **Abbasov** Aqil Məhəmməd oğlu,

86 saylı Ağcabədi seçki dairəsi – **Rzayev** Tahir Musa oğlu,

87 saylı Qobustan-Şamaxı-İsmayıllı seçki dairəsi – **Seyidzadə** Şahin Kamil oğlu,

88 saylı Şamaxı seçki dairəsi – **Cəfərova** Tamam Şaməmməd qızı,

89 saylı İsmayıllı seçki dairəsi – **Aslanov** Novruzəli Davud oğlu,

90 saylı Ağsu seçki dairəsi – **Mirzəbəyli** Elçin Əbdülrəhim oğlu,

91 saylı Göyçay seçki dairəsi – **Hacıyev** Sabir Kamal oğlu,

92 saylı Göyçay-Ağdaş seçki dairəsi – **Əfəndiyev** Məzahir Cavid oğlu,

93 saylı Ağdaş seçki dairəsi – **Alıyev** Sahib Eyvaz oğlu,

94 saylı Ucar seçki dairəsi – **Həsən** Ramil Sahib oğlu,

95 saylı Zərdab-Kürdəmir-Ucar seçki dairəsi – **Əliyeva** Jalə Fazil qızı,

96 saylı Goranboy-Naftalan seçki dairəsi – **Bədəlov** Bədəl Şamil oğlu,

97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi – **Məmmədov** Anar İlyaz oğlu,

98 saylı Bərdə-Tərtər seçki dairəsi – **Fətiyev** Xanlar Nuru oğlu,

99 saylı Bərdə seçki dairəsi – **Yıldırım** Fatma Vidadi qızı,

100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsi – **Bayramov** Kamran Fərhad oğlu,

101 saylı Samux-Şəmkir seçki dairəsi – **Qurbanlı** Mübariz Qəhrəman oğlu,

102 saylı Şəmkir şəhər seçki dairəsi – **Qafarova** Sahibə Əli qızı,

103 saylı Şəmkir kənd seçki dairəsi – **Həsənov** Nurlan Urfan oğlu,

104 saylı Gədəbəy seçki dairəsi – **Hüseynova** Sevinc Əmirəhməd qızı,

105 saylı Tovuz-Gədəbəy seçki dairəsi – **Nağıyev** Arzu Nəsib oğlu,

106 saylı Tovuz seçki dairəsi – **Səfərov** Nizami Abdulla oğlu,

107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi – **Ağayeva** Ülviyyə Cavanşir qızı,

108 saylı Ağstafa seçki dairəsi – **Əmiraslanov** Azər Kamal oğlu,

109 saylı Qazax seçki dairəsi – **Seyidov** Səməd İsmayıl oğlu,

110 saylı Balakən seçki dairəsi – **Məhəməliyev** Nəsib Məhəmməd oğlu,

111 saylı Zaqatala-Balakən seçki dairəsi – **Kərimli** Azər Şəmşid oğlu,

112 saylı Zaqatala seçki dairəsi – **Əsgərov** Asif Yunis oğlu,

113 saylı Qax-Şəki seçki dairəsi – **Məsimli** Əli Əhməd oğlu,

114 saylı Şəki şəhər seçki dairəsi – **İskəndərov** Vüqar Yapon oğlu,

115 saylı Şəki kənd seçki dairəsi – **Feyziyev** Cavanşir Əyyub oğlu,

116 saylı Qəbələ seçki dairəsi – **Musayev** Elşən Məmmədhənifə oğlu,

117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi – **Qurbanov** Eyvaz Daşdəmir oğlu,

118 saylı Ağdam-Xocalı seçki dairəsi – **Məmmədov** Elman Camal oğlu,

119 saylı Ağdam seçki dairəsi – **Əliyev** Bəxtiyar Həmzə oğlu,

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi – **Məmmədov** Ceyhun Valeh oğlu,

121 saylı Laçın seçki dairəsi – **Muradov** Rövşən Şahbaz oğlu,

122 saylı Xankəndi seçki dairəsi – **Gəncəliyev** Tural Babaşah oğlu,

123 saylı Kəlbəcər seçki dairəsi – **Qasımlı** Mircəlil Xəqani oğlu,

124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi – **Bülbüloğlu** Polad,

125 saylı Zəngilan-Qubadlı seçki dairəsi – **İsmayılov** İmamverdi İbiş oğlu.

Hörmətli deputatlar, hamımızı təbrik edirəm! *(Alqışlar.)*

İndi isə qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.11 dəq.) |
|---|---|
| İştirak edir | 122 |
| Yetərsay | 83 |

Yetərsay 83-dür, iştirak edir 122 nəfər. Yetərsay var.

Hörmətli deputatlar, Milli Məclisin Daxili Nizamnaməsinin müvafiq maddələrinə əsasən iclasımızın gündəliyinə 9 məsələ daxildir: Milli Məclisin Hesablayıcı komissiyasının yaradılması, Milli Məclisin sədrinin, sədr müavinlərinin seçilməsi, İntizam komissiyasının yaradılması, Milli Məclisin komitələrinin sədrlərinin və sədr müavinlərinin seçilməsi.

Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik təsdiq edildi, çox sağ olun.

Hörmətli deputatlar, gündəliyin 1-ci məsələsi Milli Məclisin Hesablayıcı komissiyasının yaradılmasıdır.

Komissiyanın tərkibinə təklif edilən deputatların adlarını oxuyuram: Həmzəyev Naqif Ələşrəf oğlu, Hüseynova Sevinc Əmirəhməd qızı, Quliyev Eldar Allahyar oğlu, Məmmədov Soltan Teymur oğlu, Muradov Rövşən Şahbaz oğlu, Salmanova Səbinə Qədir qızı, Zabelin Mixail Yuryeviç.

Hörmətli deputatlar, komissiyanın tərkibi ya bütövlükdə, ya da ayrı-ayrı səsə qoyula bilər. Nə təklif edirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bütövlükdə. Bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hesablayıcı komissiyanın üzvləri seçildilər. Komissiyanın üzvlərini təbrik edirik.

Xahiş edirəm, Hesablayıcı komissiyanın üzvləri yandakı otağa keçib komissiyanın sədrini və katibini seçsinlər.

Hörmətli deputatlar, biz gündəliyin 2-ci məsələsinə

keçirik və bu məsələ Milli Məclisin sədrinin seçilməsidir.

Milli Məclisin Daxili Nizamnaməsinin 33-cü maddəsinə görə, Milli Məclisin sədri vəzifəsinə namizədliyi Milli Məclisin deputatları irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Hörmətli deputatlar, parlament çoxluğunu təşkil edən Yeni Azərbaycan Partiyasının nümayəndələri bu səhər yığıncaq keçirmiş və Milli Məclisin sədri vəzifəsinə özlərinin namizədini müəyyən etmişlər. Milli Məclisin sədri vəzifəsinə Yeni Azərbaycan Partiyasının namizədini təqdim etmək üçün bizim ağsaqqal deputatımız Eldar İbrahimova söz verilir. Buyurun, hörmətli Eldar müəllim.

**Eldar İbrahimov**. Çox sağ olun, hörmətli Ziyad müəllim.

Hörmətli həmkarlar!

Bu il sentyabrın 1-də azad və şəffaf şəraitdə keçirilmiş demokratik parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi partiyamızın sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətinə xalqın göstərdiyi böyük etimadın yeni ifadəsi olmuşdur. Ulu Öndər Heydər Əliyevin arzuladığı Azərbaycanı qurmaq naminə möhtərəm Prezidentin həyata keçirdiyi strateji inkişaf xətti ölkəmizi dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə və Cənubi Qafqazın liderinə çevirmişdir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun 30 illik işğaldan azad edilməsi xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələnin həllini təmin etmişdir.

Dövlətçilik konsepsiyasının müxtəlif istiqamətlərində əldə edilmiş bu möhtəşəm uğurlar Milli Məclisə

seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədlərinə geniş xalq dəstəyinin əsas amillərinə çevrilmişdir. Beləliklə, partiyamız 68 deputat mandatı qazanaraq parlament çoxluğuna sahib olmuşdur.

Hörmətli həmkarlar!

Yeni Azərbaycan Partiyasından Milli Məclisə seçilmiş deputatlar parlamentdə çoxluq hüququndan istifadə edərək və partiyamızın sədrinin tövsiyəsini nəzərə alaraq, Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə deputat Sahibə xanım Qafarovanın namizədliyini irəli sürürlər. (*Alqışlar.)*

**Sədrlik edən.** Başqa təklif yoxdur?

**Yerdən**. Xeyr.

**Sədrlik edən.** Deməli, Milli Məclisin sədri vəzifəsinə 1 nəfərin – deputat Sahibə xanım Əli qızı Qafarovanın namizədliyi irəli sürülmüşdür. Sahibə xanımdan xahiş edək, namizəd göstərilməyə razılığını bildirsin.

Hörmətli Sahibə xanım, buyurun.

**Sahibə Qafarova**, *Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə namizəd.*

Hörmətli deputatlar, xanımlar və cənablar!

İcazə verin, Milli Məclisin sədri vəzifəsinə namizədliyimin irəli sürülməsinə görə Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə və partiya həmfikirlərimə dərin minnətdarlığımı bildirim.

Əgər deputatlar mənə etimad göstərərsə, Milli Məclisin sədri kimi məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirməyə çalışacağam. Ulu Öndər Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin davam etdirdiyi siyasi xəttin parlament səviyyəsində həyata keçirilməsini təmin etmək mənim fəaliyyətimin əsas məramı olacaqdır.

Diqqətinizə görə çox sağ olun. *(Alqışlar.)*

**Sədrlik edən.** Hörmətli deputatlar, Hesablayıcı komissiyanın protokolunu gözləyirik, onu versinlər.

*(Hesablayıcı komissiyanın protokolu sədrlik edənə təqdim olunur.)*

Hörmətli deputatlar, məlumat verim ki, deputat Eldar Quliyev Hesablayıcı komissiyanın sədri, deputat Mixail Zabelin isə komissiyanın katibi seçilmişlər. Onlara və komissiyanın digər üzvlərinə uğurlar arzulayırıq.

Hörmətli deputatlar, biz işimizi davam etdiririk. Daxili Nizamnamənin 33-cü maddəsinə görə, Milli Məclisin sədri elektron sistemindən istifadə etməklə gizli səsvermə yolu ilə seçilməlidir. Elektron sistemindən istifadə zamanı nasazlıq yarandıqda gizli səsvermə bülletenlər vasitəsi ilə keçirilir. Səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədri seçilir.

Hörmətli deputatlar, alqışlarınız bir daha sübut etdi ki, Sahibə xanım Qafarova Azərbaycan Respublikasında tanınmış çox dəyərli, görkəmli ictimai xadimdir. Səsə qoya bilərik?

**Yerdən.** Bəli. Səsə qoyulsun.

**Sədrlik edən.** Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 121 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Sahibə xanım Əli qızı Qafarova Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilmişdir. *(Alqışlar.)*

Hörmətli Sahibə xanım, Sizi hamının adından bir daha təbrik edirik, Sizə uğurlar arzulayırıq. Uğurlar, uğurlar, uğurlar! Sağ olun. Buyurun. *(Alqışlar.)*

## *Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən**. Hörmətli deputatlar!

Xanımlar və cənablar!

Etimad göstərib məni Azərbaycan Respublikası Milli Məclisinin sədri seçdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Bu mənim üçün həm böyük şərəf, həm də sonsuz məsuliyyətdir və sizi əmin edirəm ki, parlamentin sədri kimi öhdəmə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün bütün bilik və bacarığımı sərf edəcəyəm.

Bu baxımdan xüsusi vurğulamaq istəyirəm ki, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasını Milli Məclisin rəhbərliyində təmsil edərkən güclü və nüfuzlu qanunvericilik orqanı barədə partiyamızın ideyalarını reallaşdırmağa çalışacağam. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətimizin siyasi inkişafında, dövlətimizin strateji hədəflərinin əldə edilməsində, sosial həmrəyliyin möhkəmləndirilməsində önəmli rol oynayır.

Hörmətli deputatlar!

Xanımlar və cənablar!

2024-cü ilin parlament seçkiləri ölkəmizin demokratik

inkişafı yolunda irəliyə doğru mühüm addım olmuşdur. Seçkilər ölkəmizin siyasi sisteminin yetkinliyini və cəmiyyətimizdə cərəyan edən demokratik proseslərin sabit və davamlı olduğunu göstərmişdir. Parlament seçkilərinin ən yüksək standartlara uyğun şəkildə azad, ədalətli və şəffaf şəraitdə keçirilməsi xalqımızın iradəsinin dəqiq ifadə olunmasını təmin etmişdir. Xalqdan etimad alan namizədlər parlamentin üzvü mandatını əldə etmişlər.

Seçkilər nəticəsində Yeni Azərbaycan Partiyası üzvlərinin parlamentdə yerlərin əksəriyyətini qazanması möhtərəm Sədrimiz İlham Əliyev başda olmaqla partiyamızın xalq arasında nə qədər böyük nüfuza malik olduğunu bir daha nümayiş etdirmişdir.

Beləliklə, Azərbaycan Respublikasının yeddinci çağırış Milli Məclisi fəaliyyətə başlamışdır.

Bu münasibətlə mən istərdim, deputat həmkarlarımı ürəkdən təbrik edim və onlara gələcək işlərində uğurlar arzulayım.

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, altıncı çağırış Milli Məclisin fəaliyyəti Azərbaycanın həyatında dinamik inkişaf və tarixi qələbələr dövrünə təsadüf etmişdir.

20 il bundan əvvəl möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadiyyatında əldə edilmiş inkişaf tempi ötən dövrdə də qorunub saxlanılmışdır. Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialı tarixdə heç vaxt olmadığı qədər artırılmışdır. Biz hər bir çətinliyi aradan qaldırmağa qadir olan və zəngin imkanlarından məharətlə istifadə etməyi bacaran güclü bir dövlətə çevrilmişik.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və bir

günlük antiterror əməliyyatlarında əldə edilən möhtəşəm qələbələr dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını təmin etmişdir. Tarixi ədalətin öz yerini tutması, Qarabağın və Şərqi Zəngəzurun 30 illik işğaldan azad edilməsi Azərbaycanın müstəqillik tarixində yeni dövr açmışdır. Düşmənə endirilən "dəmir yumruq" dövlətimizin qüdrətinin və xalqımızın birliyinin rəmzinə çevrilmişdir.

Onu da qeyd etmək lazımdır ki, ötən illər ərzində Azərbaycanın beynəlxalq nüfuzu daha da yüksəlmişdir. Dünyanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatının yekdil qərarı ilə Azərbaycan dörd ildən artıq müddətdə bu quruma sədrlik etmişdir və hazırda hərəkatın inkişafına töhfələr verməkdə davam edir. Möhtərəm cənab İlham Əliyevin təşəbbüsü ilə Hərəkatın Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması Azərbaycanın uğurlu sədrliyinin nəticələri olmuşdur.

Hörmətli xanımlar və cənablar!

Altıncı çağırış Milli Məclisin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin parlament ölçüsünü təmin etməyə yönəlmişdir.

Milli Məclis öz işini 2020-ci il martın 10-da keçirilmiş ilk iclasında dövlət başçısının irəli sürdüyü tövsiyələr əsasında qurmuşdur.

Milli Məclisin və onun komitələrinin rəhbərliyində hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxalif partiyaların nümayəndələrinin də təmsil olunması siyasi sistemin möhkəmlənməsinə və siyasi münasibətlərin sağlam zəmində güclənməsinə xidmət etmişdir. Parlamentin fəaliyyətində demokratiya, plüralizm, qanunun aliliyi prinsipləri

daha da genişləndirilmişdir.

Altıncı çağırış dövründə Milli Məclisin Aparatında və İşlər İdarəsində struktur və kadr islahatları aparılmışdır. Bu da qeyd edilməlidir ki, 44 günlük Vətən müharibəsindən sonra qazilərə və şəhid ailələrinə dövlət qayğısının ifadəsi olaraq, onların nümayəndələri parlamentdə işə qəbul edilmişlər.

Hörmətli xanımlar və cənablar!

Qanun yaradıcılığı prosesində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Nazirlər Kabineti, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, digər icra və məhkəmə hakimiyyəti orqanları, ölkənin aparıcı elm, təhsil, yaradıcılıq mərkəzləri ilə sıx qarşılıqlı əlaqə saxlanılmışdır.

Qeyd edilməlidir ki, möhtərəm cənab Prezidentin tövsiyəsinə uyğun olaraq, Milli Məclis ilə Prezident Administrasiyası və onun müvafiq şöbələri, xüsusən Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi arasında mütəmadi konstruktiv əməkdaşlıq mühüm rol oynamışdır.

Möhtərəm cənab Prezidentin tövsiyəsinə əsasən Milli Məclis, Prezident Administrasiyası və Xarici İşlər Nazirliyi arasında ölkəmizin xarici siyasət məsələləri ilə bağlı koordinasiya həyata keçirilmişdir.

Altıncı çağırış Milli Məclisin fəaliyyətində önəmli məqamlardan biri də geniş ictimai maraq doğuran qanun layihələrinə və xüsusi əhəmiyyət kəsb edən məsələlərə dair ictimai dinləmələrin keçirilməsində dinamik artımın müşahidə edilməsidir. Bu dinləmələr qanun layihələri üzərində iş prosesində qarşıya çıxan məsələlərin daha səmərəli həllinə və nəticə etibarilə layihələrin daha yüksək səviyyədə hazırlanmasına xidmət etmişdir. Və onu da qeyd edim ki, bu illər ərzində bizdə 41 bu cür dinləmə keçirilmişdir.

Hörmətli xanımlar və cənablar!

Ötən dövrdə parlamentin fəaliyyətinə dövlət başçısının böyük qayğı və diqqətini biz daim hiss etmişik. Azərbaycan Prezidenti Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir standartlara uyğun qanunların hazırlanıb qəbul edilməsi işinə dəyərli töhfələr vermişdir.

Qanunvericilik fəaliyyətinin yekunlarına gəlincə, qeyd etmək istərdim ki, altıncı çağırış Milli Məclisin 175 iclası keçirilmiş, 1202 akt, o cümlədən 1031 qanun və 171 qərar qəbul edilmişdir.

Ölkəmizin davamlı iqtisadi inkişafının ən mühüm göstəricisi olan dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər vaxtlı-vaxtında müzakirə və qəbul edilmişdir. Bundan əlavə, hər il dövlət büdcəsinin icrası haqqında məsələ parlamentin müzakirəsinə çıxarılmış, lazım gəldikcə büdcədə dəqiqləşdirmələr aparılmışdır.

Milli Məclis nəzarət funksiyasını da uğurla yerinə yetirmişdir. Nazirlər Kabinetinin və digər qurumların illik hesabat, məruzə və məlumatları dinlənilmişdir. Eyni zamanda, Azərbaycan parlamenti qanunların icrasının monitorinqini həyata keçirmişdir.

Deputatlar vaxtaşırı seçki dairələrinin ərazisində olmuş, seçiciləri düşündürən məsələləri Milli Məclisdə və icra hakimiyyəti orqanları qarşısında qaldırmışlar.

Ötən dövrdə Milli Məclisə əhalidən 80 minə qədər təklif, ərizə və şikayət daxil olmuş, 21 mindən çox vətəndaş parlamentdə qəbul edilmişdir.

Hörmətli xanımlar və cənablar!

Altıncı çağırış Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı üçün də lazımi tədbirlər görülmüşdür. Belə ki, deputatların 80-dən çox ölkəyə 1200-dən artıq səfəri

həyata keçirilmiş, o cümlədən Milli Məclis sədrinin 70 rəsmi və işgüzar səfəri olmuşdur.

Bu dövr ərzində Milli Məclis 96 dövlətin və 42 beynəlxalq təşkilatın 3030 nəfər nümayəndəsinin iştirakı ilə 30 beynəlxalq tədbirə ev sahibliyi etmişdir.

Bu tədbirlər sırasında mən xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Milli Məclisin xüsusi iclasını ayrıca vurğulamaq istərdim. İclasda xarici ölkələrin 510 nəfər təmsilçisi, o cümlədən parlament sədrləri və sədr müavinləri, beynəlxalq parlament təşkilatlarının rəhbərləri iştirak etmişlər.

Bu da qeyd edilməlidir ki, Milli Məclisin təşkilatçılığı ilə ölkəmizdə keçirilən bir sıra beynəlxalq tədbirlərin iştirakçılarının işğaldan azad olunmuş ərazilərə 51 səfəri təşkil edilmişdir.

Xarici ölkələrin parlamentləri ilə əməkdaşlığa dair 18 yeni sənəd imzalanmışdır.

Altıncı çağırış Milli Məclisin fəaliyyəti dövründə 21 ölkənin parlamentləri ilə əlaqələr üzrə yeni işçi qrupları yaradılmış və bu qrupların sayı bu gün 103-ə çatmışdır.

Hazırda Milli Məclis Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə, Asiya Parlament Assambleyasına və Türk Dövlətlərinin Parlament Assambleyasına sədrlik edir.

Onu da qeyd edim ki, 2021-ci ilin noyabrında yaranmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bu gün 6 beynəlxalq təşkilatda müşahidəçi statusu əldə etmiş, 7 beynəlxalq təşkilata isə Parlament Şəbəkəsində müşahidəçi statusu verilmişdir. Eyni zamanda, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi 6 beynəlxalq qurumla, o cümlədən dünyanın ən böyük və mötəbər parlamentlərarası təşkilatı sayılan Parlamentlərarası İttifaq ilə Anlaşma

memorandumları imzalamışdır.

Hörmətli xanımlar və cənablar!

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün parlament diplomatiyasının bütün imkanlarından istifadə edilmişdir.

Məlum olduğu kimi, Azərbaycana qərəzli münasibət bəsləyən qüvvələr son dövrdə, xüsusən Qarabağ məsələsi həll edildikdən sonra ölkəmizə qarşı hücumları daha da gücləndirmişlər. Bu qüvvələrin sırasında məlum beynəlxalq təşkilatlar da, bəzi Avropa ölkələri də var. Milli Məclis bu təşkilatların və ölkələrin parlamentlərinin qərəzli qətnamələrinə, onların siyasi xadimlərinin əsassız iddialarına münasibətini qətiyyətlə və kəskin şəkildə ifadə etmişdir. Xarici ölkələrin parlamentləri və beynəlxalq parlament təşkilatları ilə qarşılıqlı əlaqələrdə xalqımızın maraqlarının müdafiəsi istiqamətində zəruri işlər aparılmışdır.

Hörmətli deputatlar!

Azərbaycan Respublikası günbəgün inkişaf edir və dövlətimizin beynəlxalq aləmdə nüfuzu artır. Odur ki, möhtərəm cənab Prezidentin sabit, qüdrətli və heç kəsdən asılı olmayan dövlət barəsində baxışlarının həyata keçməsinə Milli Məclis bundan sonra da var gücü ilə kömək göstərməlidir.

Əminliklə demək olar ki, Milli Məclisin fəaliyyəti dövlət siyasətinin parlament ölçüsünün daha da möhkəmləndirilməsi baxımından önəmli rol oynayacaqdır.

Bununla əlaqədar olaraq, bu gün möhtərəm cənab Prezidentin öz çıxışında irəli sürdüyü tövsiyələr Milli Məclisin fəaliyyətində rəhbər göstərişlər kimi daim nəzərə alınacaq. Eyni zamanda, hesab edirəm ki, dövlət başçısının müəyyən etdiyi məqsədləri əsas götürməklə, Milli Məclis bir neçə önəmli istiqamətə mütəmadi diqqət yetirməlidir.

Belə ki, qanunvericilik fəaliyyətinin gündəliyi möhtərəm cənab Prezidentin islahatlar proqramına uyğun olaraq, dayanıqlı inkişafa, sosial ədalətə, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunmasına kömək göstərməyə yönəlməlidir.

Parlament dövlət başçısının qarşıya qoyduğu, xüsusən iqtisadi şaxələndirmə, infrastrukturun inkişafı, sosial təminat və texnoloji innovasiyalar sahələrində qarşıya qoyduğu strateji hədəflərin əldə edilməsinə yönələn qanunlar qəbul etməlidir.

Dövlət siyasətinin parlament ölçüsünün möhkəmləndirilməsi dedikdə, hörmətli həmkarlar, mən həm də Milli Məclisin fəaliyyətində şəffaflığın və səmərəliliyin yüksəldilməsini nəzərdə tuturam. Biz vətəndaş cəmiyyəti ilə yenə də fəal qarşılıqlı əlaqə saxlamalı və qanunvericilik prosesində ictimaiyyətin iştirakını daha da genişləndirməliyik.

Parlament yeni qanunlar qəbul etməklə yanaşı, qüvvədə olan qanunları təkmilləşdirərək xalqın və dövlətin dəyişən tələbatına uyğunlaşdırmalıdır.

Bundan başqa, Milli Məclis qanunların icrasının monitorinqini genişləndirməlidir.

Möhtərəm cənab Prezidentin milli təhlükəsizlik siyasətinə uyğun olaraq, ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsini təmin edən qanunlar Azərbaycan qanunvericiliyində öz əksini tapmalıdır.

Milli Məclis dövlət başçısının beynəlxalq tərəfdaşlar ilə münasibətlərin dərinləşməsinə yönələn səylərini parlament vasitələrinin köməyi ilə dəstəkləməlidir.

Milli Məclisin deputatları regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq və mədəni mübadilə kimi önəmli sahələrdə dialoqa və əməkdaşlığa kömək göstərməlidirlər.

Milli Məclis sosial problemlərin həlli və cəmiyyətdə birlik və həmrəyliyin möhkəmlənməsi üçün icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlığı davam etdirməlidir.

Bütövlükdə, hörmətli deputatlar, Milli Məclisin fəaliyyəti xalqın bizə göstərdiyi etimadı əks etdirməlidir.

Hörmətli deputatlar!

Xanımlar və cənablar!

Ölkəmiz öz inkişafının mühüm və sınaqlarla dolu olan bir mərhələsinə qədəm qoymuşdur. Ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra Azərbaycan dövlətinin keyfiyyətcə yeni bir səviyyəyə yüksəlməsi özü ilə bərabər çoxsaylı çağırışlar da gətirmişdir. Parlament ölçüsündə bu çağırışlara cavab vermək üçün, düşünürəm ki, Vətənə və xalqa məhəbbət, dövlətə sədaqət, dəyişən şəraitə və hadisələrə çevik münasibət bildirmək bacarığı tələb olunur. Bizim hər birimiz bu tələbə cavab verməliyik.

Hörmətli deputatlar!

Biz çalışmalıyıq ki, parlament fəaliyyətini möhtərəm cənab Prezident İlham Əliyevin xalqımızın və dövlətimizin bu günü və gələcəyi naminə nümayiş etdirdiyi liderliyə layiq yüksək səviyyədə həyata keçirə bilək. Əminəm ki, Milli Məclis Azərbaycan dövlətinin və cəmiyyətinin qanunvericilik orqanına bəslədiyi ümidləri doğruldacaq, xalqımızın parlamentarizm ənənələrinin inkişafına yeni töhfələr verəcəkdir.

Diqqətinizə görə çox sağ olun. *(Alqışlar.)*

Hörmətli deputatlar, biz iclasımıza davam edirik. Gündəliyin 3-cü məsələsi Milli Məclisin sədrinin birinci müavininin seçilməsidir.

Hörmətli deputatlar, xatırladım ki, Milli Məclisin Daxili Nizamnaməsinin 34-cü maddəsinə görə, Milli Məclis sədrinin müavini vəzifəsinə namizədliyi ilk növbədə Milli

Məclisin sədri irəli sürür. Və onu da qeyd edim ki, hörmətli deputatlar, öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

İndi isə Milli Məclisin sədri kimi mən Milli Məclis sədrinin birinci müavini vəzifəsinə deputat Əli Cavad oğlu Əhmədovun namizədliyini təklif edirəm. *(Alqışlar.)*

Başqa təklif yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Əli müəllim, namizəd göstərilməyə etiraz etmirsiniz ki?

**Əli Əhmədov.** Xeyr, etiraz etmirəm, təşəkkür edirəm.

**Sədrlik edən.** Hörmətli deputatlar, necə düşünürsünüz, məsələni səsə qoymaq olarmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Biz indi səsvermə proseduruna keçirik və qeyd edim ki, Daxili Nizamnamənin 34-cü maddəsinə görə, Milli Məclis sədrinin müavinləri açıq səsvermə yolu ilə seçilir. Səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədrinin müavini seçilir.

İndi isə xahiş edirəm, Əli Cavad oğlu Əhmədovun Milli Məclis sədrinin birinci müavini vəzifəsinə seçilməsi məsələsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. *(Alqışlar.)*

Əli müəllim, Sizi təbrik edirik! Xahiş edirəm, yerinizə əyləşəsiniz. Buyurun.

Hörmətli həmkarlar, biz indi gündəliyin 4-cü məsələsinə keçirik və bu məsələ Milli Məclis sədrinin müavininin seçilməsidir. Bu vəzifəyə mən deputat Ziyafət Abbas oğlu Əsgərovun namizədliyini təklif edirəm. *(Alqışlar.)*

Başqa təklif yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun, başqa təklif yoxdur.

Ziyafət müəllim, Siz də, xahiş edirəm, rəyinizi bildirin. Buyurun.

**Ziyafət Əsgərov**. Hörmətli xanım sədr, namizədliyimi irəli sürdüyünüzə görə təşəkkür edirəm və etiraz etmirəm.

**Sədrlik edən.** Çox sağ olun. Bu mütləq lazımdır, gərək stenoqrama düşə, ona görə mən məcburam, sizə söz verəm.

Hörmətli deputatlar, məsələni səsə qoya bilərikmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

İndi isə xahiş edirəm, Ziyafət Abbas oğlu Əsgərovun Milli Məclis sədrinin müavini vəzifəsinə seçilməsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. *(Alqışlar.)*

Ziyafət müəllim, Sizi təbrik edirik! Xahiş edirəm, buyurun, yerinizə əyləşin.

Hörmətli həmkarlar, biz gündəliyin 5-ci məsələsinə keçirik. Bu məsələ də Milli Məclis sədrinin müavininin seçilməsidir.

Bildiyiniz kimi, parlament seçkilərində heç bir siyasi partiyaya mənsub olmayan müstəqil 44 nəfər deputat mandatı almışdır. Bu gün Milli Məclisin iclasından öncə onlar özlərinin iclasını keçiriblər və indi mən Milli Məclis sədrinin müavini vəzifəsinə müstəqil deputatların namizədini təqdim etmək üçün deputat Ziyad Səmədzadəyə söz verirəm. Ziyad müəllim, buyurun.

**Ziyad Səmədzadə.** Hörmətli xanım sədr, hörmətli deputatlar!

Parlamentdə heç bir siyasi partiyaya mənsub olmayan müstəqil deputatlar bu səhər keçirdikləri yığıncaqda qərara aldılar ki, Milli Məclis sədrinin müavini vəzifəsinə bizim həmkarımız Musa Cəfər oğlu Qasımlının namizədliyini irəli sürsünlər.

Musa Qasımlı təcrübəli deputatdır, 15 ilə yaxındır ki, Milli Məclisdə seçicilərini layiqincə təmsil edir. O həm də görkəmli tarixçi alimdir. Tarix elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Qafqazşünaslıq İnstitutunun direktorudur. 2017-ci ildə cənab Prezidentin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Hesab edirik ki, Musa Qasımlı Milli Məclis sədrinin müavini vəzifəsini uğurla yerinə yetirəcəkdir. Xahiş edirik, deputat həmkarlarımız bu namizədliyə müsbət münasibət bildirilməsi barədə xahişimizi nəzərə alsınlar.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyad müəllim.

Hörmətli həmkarlar, başqa təklif yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Musa müəllim, namizəd göstərilməyə etiraz etmirsiniz ki? Buyurun.

**Musa Qasımlı.** Hörmətli xanım sədr, xeyr, etiraz etmirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, səsə qoymaq olarmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Beləliklə, Musa Cəfər oğlu Qasımlı Milli Məclis sədrinin müavini seçildi. *(Alqışlar.)*

Musa müəllim, Sizi təbrik edirik. Xahiş edirəm, buyurun.

Hörmətli həmkarlar, biz gündəliyin növbəti, 6-cı məsələsinə keçirik. Bu məsələ də Milli Məclisin sədrinin müavininin seçilməsidir.

Hörmətli həmkarlar, Milli Məclis sədrinin müavini vəzifəsinə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların namizədini təqdim etmək üçün mən deputat Tənzilə Rüstəmxanlıya söz verirəm. Tənzilə xanım, buyurun.

**Tənzilə Rüstəmxanlı**. Hörmətli xanım sədr, hörmətli deputatlar!

Xanımlar və cənablar!

Azərbaycan Respublikasının yeddinci çağırış Milli Məclisində Yeni Azərbaycan Partiyası ilə yanaşı, daha 10 siyasi partiyanın təmsilçiləri yer almışlar.

Dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü və tövsiyəsi ilə Milli Məclisin rəhbərliyində azlıq təşkil edən siyasi partiyaların nümayəndəsinin də təmsil olunması, deyə bilərik ki, artıq ənənəyə çevrilir. Bu, ölkəmizin demokratik inkişafının mühüm bir göstəricisidir, çünki parlamentdə ictimai fikrin müxtəlif aspektlərini ifadə edən siyasi partiyalar arasında konstruktiv əməkdaşlıq mühitinin bərqərar olmasına imkan yaradır.

Hörmətli həmkarlar!

Milli Məclisdə azlıq təşkil edən siyasi partiyalar arasında ən çox deputat mandatı Vətəndaş Həmrəyliyi Partiyasına məxsusdur və biz Milli Məclis sədrinin müavini vəzifəsinə Vətəndaş Həmrəyliyi Partiyasının təmsilçisi deputat Rafael Hüseynovun namizədliyini irəli sürürük.

Rafael müəllim Milli Məclisin ən təcrübəli deputatlarından biridir, 24 ilə yaxındır ki, parlamentdə seçicilərini layiqincə təmsil edir. O, tanınmış ictimai-siyasi xadim, görkəmli ədəbiyyatşünas, yazıçı, publisistdir. Filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür.

Rafael Hüseynov özünün çoxcəhətli fəaliyyəti ilə daim sübut edir ki, siyasi baxışların müxtəlifliyi ümumi iş naminə əməkdaşlığa nəinki mane olmur, əksinə, kömək göstərir. Hesab edirik ki, Rafael Hüseynovun Milli Məclis sədrinin müavini seçilməsi Azərbaycan parlamentində siyasi əməkdaşlığın möhkəmləndirilməsi yolunda növbəti

mühüm addım olacaqdır.

Mən deputat həmkarlarımdan bizim bu təklifimizi dəstəkləməyi xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Çox sağ olun, Tənzilə xanım. Hörmətli həmkarlar, başqa təklif varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur.

Rafael müəllim, xahiş edirəm, Siz də öz fikrinizi bildirin. Buyurun.

**Rafael Hüseynov**. Azərbaycan Milli Məclisinin sədarətində təmsil olunmaq böyük şərəfdir. Namizədliyimin irəli sürülməsinə görə təşəkkür edirəm, etimada görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, səsə qoya bilərikmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, Rafael Baba oğlu Hüseynovun Milli Məclis sədrinin müavini seçilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Rafael müəllim, Sizi təbrik edirik. *(Alqışlar.)*

Xahiş edirəm, öz yerinizə keçəsiniz.

Hörmətli deputatlar, biz 7-ci məsələyə keçirik və bu məsələ Milli Məclisin İntizam komissiyasının yaradılmasıdır.

İntizam komissiyasının tərkibinə mən aşağıdakı deputatların namizədliklərini təklif edirəm:

Cəfərov Kamal Xaqani oğlu, Həsənova Afət Əbil qızı, İbrahimqızı Məlahət İbrahim qızı, İbrahimov Eldar Rza oğlu, Qafarov Kamaləddin Nəsrəddin oğlu, Məhəməliyev Nəsib Məhəmməd oğlu, Məmmədov Hikmət Baba oğlu, Məmmədov Məşhur Şahbaz oğlu, Mollazadə Asim Nazim oğlu, Möhbalıyev Səttar Suliddin oğlu və Səfərov Nizami Abdulla oğlu.

Hörmətli deputatlar, bildiyiniz kimi, komissiyanın tərkibi ya bütövlükdə, ya da ayrı-ayrı səsə qoyula bilər. Nə təklif edirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bütövlükdə. Çox sağ olun. Xahiş edirəm, onda məsələyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi. İntizam komissiyasının üzvləri seçildilər. Mən komissiyanın üzvlərini təbrik edirəm!

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bu bizim gündəliyimizdə 8-ci məsələdir. Mən Milli Məclisin

komitə sədrlərinin seçilməsi məsələsini sizin diqqətinizə təqdim edirəm.

Bildiyiniz kimi, Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə uyğun olaraq, Milli Məclis komitələri təşkil edir. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanunun 7-ci maddəsinə əsasən Milli Məclisdə 15 komitə mövcuddur.

Hörmətli həmkarlar, indi biz komitələrin sədrlərini seçməliyik və bu vəzifələrə mən aşağıdakı deputatların namizədliklərini təklif edirəm:

Əli Məhəmməd oğlu **Hüseynli** – Hüquq siyasəti və dövlət quruculuğu komitəsi,

Arzu Nəsib oğlu **Nağıyev** – Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi,

Zahid Məhərrəm oğlu **Oruc** – İnsan hüquqları komitəsi,

Sadiq Haqverdi oğlu **Qurbanov** – Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi,

Azər Kamal oğlu **Əmiraslanov** – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi,

Tahir Musa oğlu **Rzayev** – Aqrar siyasət komitəsi,

Musa İsa oğlu **Quliyev** – Əmək və sosial siyasət komitəsi,

Əhliman Tapdıq oğlu **Əmiraslanov** – Səhiyyə komitəsi,

Hicran Kamran qızı **Hüseynova** – Ailə, qadın və uşaq məsələləri komitəsi,

Şahin Əmir oğlu **İsmayılov** – Gənclər və idman komitəsi,

Fazil Qəzənfər oğlu **Mustafa** – İctimai birliklər və dini qurumlar komitəsi,

Siyavuş Dünyamalı oğlu **Novruzov** – Regional məsələlər komitəsi,

Anar Camal oğlu **İsgəndərov** – Elm və təhsil komitəsi,

Polad **Bülbüloğlu** – Mədəniyyət komitəsi,

Səməd İsmayıl oğlu **Seyidov** – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

Hörmətli həmkarlar, başqa fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Xahiş edirəm, məsələyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi və mən Milli Məclisin komitə sədrlərini təbrik edirəm. *(Alqışlar.)*

Hörmətli həmkarlar, biz gündəliyimizin sonuncu, 9-cu məsələsinə çatdıq və bu məsələ Milli Məclisin komitələrinin sədr müavinlərinin seçilməsidir. Milli Məclisin komitə sədrlərinin müavinləri vəzifələrinə mən aşağıdakı deputatların namizədliklərini təklif edirəm:

Elşən Məmmədhənifə oğlu **Musayev** – Hüquq siyasəti və dövlət quruculuğu komitəsi,

Qüdrət Müzəffər oğlu **Həsənquliyev** – Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi,

Arzuxan Baxşəli oğlu **Əli-zadə** – İnsan hüquqları komitəsi,

Fatma Vidadi qızı **Yıldırım** – Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi,

Azər Camal oğlu **Badamov** – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi,

Razi Qulaməli oğlu **Nurullayev** – Aqrar siyasət komitəsi,

Elşad Nəbi oğlu **Musayev** – Əmək və sosial siyasət komitəsi,

Rəşad Məmmədqulu oğlu **Mahmudov** – Səhiyyə komitəsi,

Jalə Fazil qızı **Əliyeva** – Ailə, qadın və uşaq məsələləri komitəsi,

Könül Oruc qızı **Nurullayeva** – Gənclər və idman komitəsi,

Sahib Eyvaz oğlu **Alıyev** – İctimai birliklər və dini qurumlar komitəsi,

Nurlan Urfan oğlu **Həsənov** – Regional məsələlər komitəsi,

Fariz Akif oğlu **İsmayılzadə** – Elm və təhsil komitəsi,

Günay Elçin qızı **Əfəndiyeva** – Mədəniyyət komitəsi,

Nigar Cavid qızı **Arpadarai** – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

Hörmətli həmkarlar, başqa fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Hörmətli deputatlar, xahiş edirəm, bu məsələyə də münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi və mən komitə sədr-

lərinin müavinlərini də təbrik edirəm. *(Alqışlar.)*

Bununla da, hörmətli deputatlar, xanımlar və cənablar, Milli Məclisin bugünkü iclası sona çatdı.

Hörmətli həmkarlar, əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin Milli Məclisin işi ilə bağlı tövsiyələrini sizinlə birlikdə yerinə yetirmək üçün biz var gücümüzü sərf edəcəyik.

Hörmətli deputatlar, sizi bir daha təbrik edirəm, işlərinizdə uğurlar arzulayıram. Sağ olun. *(Alqışlar.)*

## MÜNDƏRİCAT

23 sentyabr 2024-cü il........................................................... 3

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci iclas

1-ci cild

23 sentyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  4,5. Sifariş 99. Tiraj 150.